# Strateji müttəfiqlik xarakteri daşıyan ikitərəfli münasibətlər möhkəmlənir

## Azərbaycan-Rusiya əlaqələri yüksələn xətlə inkişaf edir

**Oktyabrın 13-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində MDB Dövlət Başçıları Şurasının iclası keçirildi.**

İclasda iştirak etmək üçün bir gün öncə Qırğız Respublikasına səfərə gedən Prezident İlham Əliyevin Rusiyanın Prezidenti Vladimir Putin ilə görüşü oldu. Liderlərin görüşü zamanı Azərbaycan-Rusiya dövlətləri arasında mövcud olan hərtərəfli əlaqələrdən bəhs edildi, iqtisadi-ticari əlaqələrin inkişafından, xüsusilə ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.

"Biz həmkarlarımızla ikitərəfli gündəliklə bağlı danışacağıq, həm də bizim danışmağa mövzularımız çoxdur" deyə sözügedən görüşdə Prezident İlham Əliyev vurğuladı ki, bu ilin həm əmtəə dövriyyəsi, həm sənaye kooperasiyası, həm də nəqliyyat sahəsində əməkdaşlıq üzrə nəticələri olduqca yaxşıdır. Çoxlu layihələr var. Sonra isə regional mövzulara və təhlükəsizlik məsələlərinə keçərik".

### Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyəti vacibdir

Bişkekdə İlham Əliyev və Vladimir Putin arasında keçirilən görüşdə regionlararası əməkdaşlıq məsələsinə toxunularaq, Azərbaycanın Rusiyanın 70 regionu ilə uğurlu əməkdaşlığı qeyd edildi, bu xüsusda mütəmadi əsasda keçirilən regionlararası forumun vacib platforma olduğu bildirildi.

Söhbət zamanı "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafından, onun potensialının genişləndirilməsindən və bütövlükdə həm dəmir yolu, həm də avtomobil yolları vasitəsilə yükdaşımaların həcminin bu marşrut boyunca artmasından məmnunluq ifadə olundu. Humanitar sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, bu baxımdan Azərbaycanda rus dilinə qayğı, xeyli sayda ali və orta təhsil müəssisəsində rus dilinin tədrisi qeyd edildi.

Həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsinin önəminə də toxunulan görüşdə Azərbaycan ilə Rusiya arasında hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin vacibliyi vurğulandı.

### Strateji tərəfdaşların münasibətləri

Yürütdüyü balanslaşdırılmış xarici siyasət kursu sayəsində dünyanın əksər ölkələri tərəfindən etibarlı tərəfdaş, güvənilən ölkə kimi tanınan Azərbaycan Rusiya ilə də qarşılıqlı etimada əsaslanan münasibətlər qurub.

Tarixən mədəni, humanitar, iqtisadi əlaqələrin mövcud olduğu iki ölkə arasında 2022-ci il fevralın 22-də imzalanan bəyannamə ilə Azərbaycan-Rusiya münasibətləri yeni mərhələyə yüksəlib.

Sözügedən tarixdə Moskvada Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb.

Bəyannamədə göstərilir ki, hər iki ölkə müttəfiqlik fəaliyyətini bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı fayda, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulmasına dair öhdəlik götürürlər. Eyni zamanda xüsusi olaraq vurğulanır ki, hər iki ölkə müstəqil xarici siyasət yürüdür, hər iki ölkə müttəfiqlik münasibətlərinə xələl gətirən hərəkətlərdən, eləcə də bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinməyə dair öhdəlik götürürlər.

Bu bəyannaməyə qədər də iki ölkə arasında xeyli mühüm sənəd imzalanıb. Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 3 iyul 1997-ci il tarixli Müqavilə, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında 3 iyul 2008-ci il tarixli Bəyannamə imzalanması da buna bariz nümunələrdəndir. Həmçinin 1 sentyabr 2018-ci ildə Rusiya ilə Azərbaycan prezidentlərinin 1 sentyabr 2018-ci il tarixli birgə bəyanatları da ölkələrimiz arasındakı yüksək münasibətlərin əyani təzahürü idi.

Həmin tarixdə mətbuata bəyanatında Prezident İlham Əliyev vurğulamışdı ki, ölkələrimizin dövlət başçıları arasında olan müntəzəm əlaqələr bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir: "Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik".

### Regional təhlükəsizlik, iqtisadi əlaqələr

2023-cü il oktyabrın 10-da Bakıda Rusiyanın Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul etdiyi zaman ölkələrimiz arasında münasibətlərin gündəliyindəki məsələlərin çox geniş olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycanla Rusiya arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından keçən dövrün ikitərəfli münasibətlərimizin həqiqətən müttəfiqlik xarakteri daşıdığını nümayiş etdirdiyini dedi və bunun bütün sahələrdə özünü göstərdiyini vurğuladı.

Prezident regional təhlükəsizlik, iqtisadi əlaqələr, nəqliyyat və digər sahələrlə bağlı əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Qlobal və regional məsələlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılan görüşdə regional əməkdaşlıq məsələləri müzakirə olundu. Dövlət başçısı İlham Əliyev regional məsələlərin 3+3 formatında region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini vurğuladı, bu formatda müvafiq səviyyələrdə görüşlərin keçirilməsini qeyd etdi, həmçinin söhbət zamanı "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişaf etdirilməsi istiqamətində Azərbaycan-Rusiya-İran arasındakı əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

Göründüyü kimi, Rusiya ilə Azərbaycan arasında hərtərəfli yüksəksəviyyəli əlaqələr mövcuddur. İki ölkə prezidentləri İlham Əliyev və Vladimir Putin arasında olan qarşılıqlı hörmət və etimada əsaslanan dostluq münasibətləri isə Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə əlavə töhfələr verir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 14 oktyabr.- S.2.